# "Ekol" yeni ili layiqli töhfələrlə qarşılayır



Azərbaycan Respublikasının Prezidenti, ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində respublikamız sürətlə inkişaf etməkdə, iqtisadi, siyasi, sosial və mədəni sahələrdə böyük nailiyyətlər əldə olunmaqdadır. Respublikamızın dinamik inkişafı fonunda iqtisadi qüdrətimizin güclənməsində misilsiz xidmətləri olan Dövlət Neft Şirkəti də modern bir şirkət olaraq qarşıda duran vəzifələri əzmlə yerinə yetirərək öz layiqli töhfələrini verməkdədir.

ARDNŞ ötən illərdə olduğu kimi, 2014-cü ildə də bütün istiqamətlərdə, o cümlədən neft-qaz sənayesi sahələrində ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi sahəsində uğurlu nəticələr əldə etmişdir.

2006-cı ildə ARDNŞ-nin (51 faiz) və "Lancer" Environmental Consultinq Şirkətinin (49 faiz) təsisçiliyi ilə yaradılmış və İSO-9001, İSO-14001 və OHSAS-18001 standartları çərçivəsində fəaliyyət göstərən "Ekol Mühəndislik Xidmətləri" Qapalı Səhmdar Cəmiyyəti (QSC) də ARDNŞ-nin fəaliyyət sahələrində, eləcə də digər "Sifarişçi" təşkilatların istehsalat ərazilərində ekoloji vəziyyətin yaxşılaşdırılması layihələrinin icrasında yaxından iştirak etmiş və uğurlu nəticələrə imza atmışdır.

2014-cü ilin müvafiq dövründə QSC-nin Ekoloji Monitorinq Departamenti (EMD) tərəfindən ARDNS-nin "Kompleks Qazma İşləri" Tresti və "Azneft" İB-nin "28 May" NQÇİ-nin, "Neft Daşları" NQÇİ-nin, "Abşeronneft" NQÇİ-nin, N.Nərimanov adına NQÇİ-nin, həmçinin "AzGerneft" MMC-nin və "Balakhanı Operatinq Company LTD" Azərbaycan Respublikasındakı filialının mədən və istehsalat ərazilərində müqaviləyə əsasən dövri monitorinq işləri aparılmış, müşahidə məlumatları əsasında hesabatlar hazırlanaraq "Sifarişçi"lərə təqdim olunmuşdur.

Bununla yanaşı, EMD-nin Normativ-texniki sənədlərlə iş şöbəsi tərəfindən "Azneft" İB-nin "28 May" NQÇİ-nin, "Neft Daşları" NQÇİ-nin və "Abşeronneft" NQÇİ-nin, "BibiHeybətneft" NQÇİ-nin, "Siyəzənneft" NQÇİ-nin, N.Nərimanov adına NQÇİ-nin, Ə. Əmirov adına NQÇİnin, H.Z. Tağıyev adına NQÇİ-nin, Tamponaj və layların neft veriminin artırılması idarəsinin, Qobustan Nəqliyyat İdarəsinin, Qaz Anbarları İstismar İdarəsinin, Maddi-texniki təchizat idarəsinin, Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə EİMnin, eləcə də "Star Beton Production" MMC-nin ekoloji normativ texniki sənədləri təqvim planına uyğun olaraq işlənib hazırlanmışdır. Hazırda bu sahədə işlər davam etdirilir.

Cari ildə QSC-nin Tullantıların Emalı Departamenti (TED) də uğurlu nəticələr əldə etmişdir. TED-nin 6-cı sahəsində (Heydər Əliyev adına BNEZ-nun 9-cu sexinin ərazisi) BNEZ-nun 10 min 600 tona qədər neftşlamı emal edilərək zərərsizləşdirilmiş, 8 milyon 127 min $m^3$-ə qədər sənaye çirkab suları, 150 tona qədər isə ərsin parafini təmizlənmişdir. TED-nin 7-ci sahəsində isə ("Azərneftyağ" NEZ-nun ərazisi) NEZ-da texnoloji proseslər nəticəsində formalaşan 9 min 680 ton neftşlam emal olunaraq zərərsizləşdirilmiş, 10 milyon 399 min $m^3$-ə qədər sənaye çirkab suları təmizlənərək dövri istifadəyə verilmişdir.



Eyni zamanda TED tərəfindən müvafiq dövrdə ARDNŞ-nin Ekologiya idarəsindən və Qaz Emalı Zavodundan neft tərkibli məişət-təsərrüfat sularının daşınıb təmizlənməsi həyata keçirilmiş, Nefi Kəmərləri İdarəsinin Dübəndi İstehsalat Bölümündə isə təmizləyici qurğulara xidmət göstərilmişdir. ARDNŞ-nin "Kompleks Qazma İşləri" Trestindən, "Neftqaztikinti" Trestindən, Fövqəladə Hallar Nazirliyinin Xəzər Hövzə Qəza - xilasetmə xidmətindən, "Azərbaycan Xəzər Dəniz Gəmiçilik" QSC-nin Dəniz Neft Donanmasından, "Suraxanı OYL Opereyşn Kompani S.A." Şirkətinin Azərbaycan Respublikasındakı Nümayəndəliyindən, "AAS-EKOL" MMC-dən, AAS-ATE MMC-dən, AA services-dən, Azərbaycan Dövlət Dəmir Yolu QSC-nin Biləcəri Yumabuxarlanma stansiyasından "Az Metanol Ko" MMC-dən, "İnter Qaz Servis" MMC-dən və digər təşkilatlardan 70 min $m^3$/tondan çox müxtəlif tərkibli çirkab sularının, mədən axıntı sularının, işlənmiş yağların, ərsinparafininin, neftşlamın daşınıb təmizlənməsi və utilizasiyası təmin edilmişdir. ARDNŞ-nin "Azərneftyağ" NEZ-nun Bakı Ağ Şəhər layihəsi ərazisindəki gölməçələrində yığılmış 2 min 880 $m^3$-ə qədər sənaye-çirkab suları nəql edilərək təmizlənmişdir.

QSC-nin Torpaqların Rekultivasiyası Departamenti (TRD) də cari ilin müvafiq dövründə üzərinə düşən öhdəliklərə layiqincə əməl etmiş, bu müddət ərzində ARDNŞ-nin "Azərneftyağ" NEZ-nun Bakı Ağ Şəhər layihəsi ərazisindəki istehsalat sahələrindən 739 min 676 $m^3$-dən çox neft məhsulları ilə çirklənmiş torpaqların daşınmasını həyata keçirmişdir.

TRD 2014-cü ildə "Sifarişçi" təşkilatların yaşıllıq sahələrinin genişləndirilməsi və bitkilərə aqrotexniki xidmətlərin göstərilməsi işlərini də yüksək səviyyədə təşkil etmişdir. Cari ilin yaz və payız mövsümlərində xidmət göstərilən yaşıllıq sahələrində "Azneft" İB ilə birgə 1 500 ədədə qədər yeni ağaclar əkilmiş, bitkilərin normal inkişafı üçün zəruri aqrotexniki xidmətlər göstərilmişdir. Hazırda TRD ARDNŞ-nin Qaz Emalı Zavodunun ərazisində 11 min ədəd, H.Z. Tağıyev adına NQÇİ-nin Qala sahəsindəki mədən ərazisində 6 min 624 ədəd, "Abşeronneft" NQÇİ-nin Piralahı qəsəbəsindəki mədən ərazisində 17 min 280 ədəd, "BibiHeybətneft" NQÇİ-nin mədən ərazisində isə 49 min 12 ədəd müxtəlif növ ağac, bəzək və gül kollarına aqrotexniki xidmətlər göstərmişdir. Həmin sahələrdə bitkilərin mühafizəsi və inkişafı üçün kompleks tədbirlər həyata keçirilmişdir. Yaşıllaşdırma sahələrində əsasən iqtisadi cəhətdən səmərəli və daha effektli olan damcı suvarma sistemləri quraşdırılmışdır.



ARDNŞ neftşlamın emalı, sənaye-çirkab və lay sularının, eləcə də neftlə çirklənmiş torpaqların təmizlənməsi sahəsində, yeni texnika və texnologiyaların əldə edilməsi və istehsalata tətbiqi istiqamətində QSC-nin qarşısında mühüm vəzifələr qoymuşdur. Bununla əlaqədar olaraq, əvvəlki illərdə olduğu kimi 2014-cü ildə qarşılıqlı əməkdaşlıq çərçivəsində QSC-nin xarici əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsi sahəsində də məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Bu sahədə 2014-cü ilin müvafiq dövründə də məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Bununla əlaqədar olaraq, Almaniyanın GİCON, "Alfa-Laval", BASF, Econ, "AWAS", "BAMAG", "BauerResouRces Company, Norveçin THERMTECH", İngiltərənin "WET" şirkəti, ABŞ-ın "ARQUS", "FMT", "Sundance Services İNC" şirkəti, "Agranco" korporasiyası, "KMT İNTERNATİONAL, İNC" şirkətlər qrupunun Azərbaycan nümayəndəliyi, Türkiyənin Nano Tech Texnology Concept LTD, Amerika Ticarət Palatası, Fransanın Antea Group şirkəti, İtaliyanın RİCCOBONİ şirkəti, PieKanadanın Nelson Environmental Remediation LTD şirkəti və dünyanın bir çox tanınmış analoji şirkətləri ilə görüşlər keçirilmiş bəzi məsələlərdə ilkin razılıqlar əldə olunmuşdur. QSC-nin rəhbərliyi və mütəxəssisləri vaxtaşırı xarici ölkələrdə xidməti ezamiyyətdə olmuş, təcrübə mübadiləsi keçmiş və beynəlxalq sərgilərdə iştirak etmişlər.

2014-cü ildə QSC əldə etdiyi nailiyyətləri və maraqlı stendi ilə "Əsrin müqaviləsi"nin 20-ci ildönümü və "Neftçilər Günü", eləcə də "Xəzər: Ətraf Mühit üçün Texnologiyalar" 5-ci Yubiley Beynəlxalq Ətraf Mühit sərgilərində layiqincə təmsil olunmuşdur.

"Ekol Mühəndislik Xidmətləri" QSC-nin kollektivi qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsi istiqamətində fəaliyyətini davam etdirir.

**Ramil ƏLİYEV,**
**"Ekol Mühəndislik Xidmətləri" QSC-nin baş direktoru.**